

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 103 (23.515)

2 iyul 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 1 iyul tarixli Sərəncamı ilə cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin mühafizəsində, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsində, ölkədə koronavirus infeksiyasının (COVID-19) yayılmasının qarşısının alınması məqsədilə tətbiq olunmuş xüsusi karantin rejiminə nəzarətin təmin edilməsi ilə bağlı xidməti vəzifələrini yerinə yetirməkdə fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları da vardır.

**Hüseynəliyev Şərif Rövşən oğlu – polis polkovnik-leytenantı**

**İbrahimov Ələşrəf İbrahim oğlu – polis polkovniki**

“Vətən uğrunda” medalı ilə,

**İsmayılov Ayaz Muxtar oğlu – polis baş leytenantı**

“İgidliyə görə” medalı ilə təltif edilmişlər.

## Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

“Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində Naxçıvan Muxtar Respublikasının ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında Qərar qəbul edilmişdir. Adıçəkilən Qərar təhsilalanların peşə seçiminə və əmək fəaliyyətinə hazırlanması məqsədilə Naxçıvan Muxtar Respublikasının ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin təşkili və həyata keçirilməsi qaydasını müəyyən edir. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının ümumi təhsil müəssisələrində peşəyönümü xidməti təhsilalanların peşə seçiminə və əmək fəaliyyətinə hazırlanması məqsədilə onların maraqlarını, bacarıqlarını, qabiliyyətlərini və şəxsi keyfiyyətlərini gələcək peşə bacarıqlarının öyrənilməsinə, düzgün ixtisas seçiminin edilməsinə, əmək fəaliyyətinə dair tələb olunan biliklərin formalaşmasına, karyera planlaşdırılmasına və ömürboyu təhsil imkanlarının araşdırılmasına yönəldilmiş tədbirlərdir.

Nazirlər Kabinetinin 19 iyun tarixli 110 nömrəli Qərarına uyğun olaraq “Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası”nın təsdiq edilməsi haqqında Qərar qəbul edilmişdir. Bu Qayda Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində pedaqoji və idarəetmə fəaliyyəti ilə məşğul olan, ali və orta ixtisas təhsilinə malik təhsilverənlərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının yoxlanılması prosedurunu tənzimləyir. Təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan, ali və orta ixtisas təhsilinə malik təhsilverənlər peşəkarlıq səviyyələrinin və peşə yararlılıqlarının yoxlanılması məqsədilə 5 ildə bir dəfə ödənişsiz sertifikatlaşdırmadan keçməlidirlər.

Eyni zamanda Nazirlər Kabinetinin 117 nömrəli 25 iyun tarixli “Fərdi yaşayış evlərinin qazlaşdırılması və enerji təchizatı şəbəkəsinə qoşulması Qaydaları”nın təsdiq edilməsi haqqında Qərar qəbul olunmuşdur. Bu Qərara əsasən qazpaylayıcısı tərəfindən istehlakçının qazla təchiz edilməsi qazın alqı-satqı müqaviləsinə əsasən həyata keçirilir. Məişət qaz qurğularının istifadəsi üçün qaz sayğacı və qaz sayğacınadək istifadə olunan mal-materiallar, həmçinin qazın istehlakçıya çatdırılması üçün 1 (bir) məntəqəyə qədər çəkilən xərclər qazpaylayıcısının vəsaiti hesabına (digər xərclər də daxil olmaqla) quraşdırılır və dəyişdirilir. Elektrik qurğularının istifadəsi üçün isə elektrik sayğacı və elektrik sayğacınadək istifadə olunan mal-materiallar məişət abonentlərinin tələb olunan gücü 5 kVta qədər olduqda bütün xərclər daxil olmaqla, enerji təchizatı müəssisəsinin vəsaiti hesabına quraşdırılır və dəyişdirilir. Abonentin müraciətinə əsasən tələb olunan gücü 5 kVtdan yuxarı olan enerji təchizatı şəbəkəsinə qoşulmasına çəkilən xərclər istehlakçının vəsaiti hesabına ödənilir. İstehlakçıların elektrik sayğaclarının üzərində olan plombları kənar müdaxilələrdən qorumaq üçün enerji təchizatı müəssisəsi tərəfindən sayğac göstəricisinə sərbəst şəkildə baxılmasına imkan olan elektrik qutusu ilə təmin edilməlidir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2005-ci il 16 sentyabr tarixli 131 nömrəli Qərarı ilə təsdiq edilmiş “Turist-ekskursiya xidmətlərinin sertifikatlaşdırılması Qaydası”nda da dəyişiklik edilmişdir. Dəyişikliyə əsasən sertifikatlaşdırma işi Turizm Departamentinə həvalə edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 119 nömrəli Qərarına əsasən “Naxçıvan Muxtar Respublikasında dövlət ictimai və ekoloji ekspertizanın həyata keçirilməsi Qaydası” təsdiq edilmişdir. Bu Qaydaya əsasən ekoloji ekspertizanın əsas məqsədi ekoloji ekspertiza obyektlərinin ətraf mühitə və insan sağlamlığına birbaşa və ya dolayısılə mənfi təsirinin və onlarla bağlı nəticələrin aşkar edilməsi, qarşısının alınması və proqnozlaşdırılmasından, qəbul olunan qərarların ekoloji təhlükəsizlik dərəcəsini və ətraf mühitin mühafizəsi üzrə tədbirlərin səmərəsini müəyyən etməkdən ibarətdir.

“Koronavirus pandemiyası dövründə Naxçıvan Muxtar Respublikasında uçuşların və hava nəqliyyatı ilə sərnişin daşımalarının təşkili üzrə müvəqqəti Qaydalar” təsdiq edilmişdir. Bu qaydalara əsasən sərnişinlər uçuşdan əvvəl 48 saat ərzində koronavirus testindən keçən və nəticəsi neqativ olan sərnişinlər bu barədə arayışı təqdim etməklə uçuşa buraxılırlar. Ölkədaxili uçuşlarda Azərbaycan Respublikasının vətəndaşları üçün bu müayinələr ödənişsiz əsaslarla aparılır. Hava limanında tibbi yoxlamanın operativ təşkili üçün Naxçıvan Muxtar Respublikasına uçuşları icra edən bütün aviadaşıyıcılar pasport məlumatlarının və koronavirus müayinəsinə dair testin neqativ nəticələri göstərilməklə, reysdəki sərnişinlər barədə məlumatı (siyahını) belə yoxlamanı aparan quruma vaxtında ötürülməsi məqsədilə hava limanında təyin edilmiş yerüstü xidmətlər göstərən operatora xüsusi qaydada əvvəlcədən ötürmələri və digər məsələlər öz əksini tapmışdır.

30 iyun 2020-ci il tarixdə “Naxçıvan Muxtar Respublikasının ərazisində hava damcı yolu ilə keçən yoluxucu xəstəliklər zamanı karantin nəzarətinə götürülmə Qaydaları”nın təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2 iyun 2020-ci il tarixli 97 nömrəli Qərarında dəyişikliklər edilmişdir. Dəyişikliklərə əsasən yoluxucu xəstəliyə yoluxma faktı təsdiq edilmiş şəxslərə onların hüquq və vəzifələri, həmin şəxslərə göstəriləcək xidmətlərin dairəsi və təcridolunma müddəti barədə məlumat verilir. Aparılmış laboratoriya müayinələri nəticəsində yoluxucu xəstəliyə yoluxma faktı təsdiq edilmiş şəxslər yoluxucu xəstəliyin müalicəsi üçün ayrılmış xüsusi tibb müəssisəsinə yerləşdirilirlər.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında da dəyişikliklər edilmişdir. Dəyişikliyə müvafiq olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 22 iyun tarixli Sərəncamının icrası ilə əlaqədar Babək şəhəri, Nehrəm və Cəhri qəsəbələri ərazilərində olan Səhiyyə və Mədəniyyət nazirliklərinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısında dəyişikliklər edilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Muxtar respublikada əkin dövriyyəsi artmışdır

*Muxtar respublikada son dövrlər qəbul olunmuş Dövlət proqramlarının uğurlu icrası, keyfiyyətli toxum növlərinin istehsalı, məhsul istehsalçılarına güzəştli şərtlərlə kreditlərin və texnikaların verilməsi aqrar sahənin əsasını təşkil edən bitkiçilik məhsullarının istehsalında davamlı artımı təmin etmişdir.*

Torpaqların faydalı istifadəsinin və su təminatının yaxşılaşdırılması istiqamətində meliorasiya və irriqasiya sistemlərinin yenidən qurulması diqqətdə saxlanılmış, təkcə 2019-cu ildə Kəngərli rayonunun Yurdçu kəndi ərazisində 176,4 hektar, Şahbuz rayonunun Türkeş kəndi ərazisində 343 hektar torpaq sahələrində yeni qapalı suvarma şəbəkələrinin, Şərur rayonunun Danyeri kəndində nasos stansiyasının tikintisi başa çatdırılmışdır. Bundan əlavə, cari ilin ötən dövründə Sədərək rayonunda işğaldan azad edilmiş 73 hektar torpaq sahəsində meliorativ tədbirlər aparılmış və əkin dövriyyəsinə daxil edilmişdir.

Həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsi olaraq muxtar respublikada 2020-ci ilin məhsulu üçün ümumi əkin sahəsi 63 min 405 hektar təşkil etmişdir ki, bu da 2019-cu illə müqayisədə 435 hektar çoxdur.

***Muxtar respublikada qəti əkinin dinamikası, hektar***




Ümumi əkin sahəsinin 36099 hektarını və ya 56,9 faizini payızlıq əkin, 23142,4 hektarını və ya 36,5 faizini yazlıq əkin, 4163,6 hektarını və ya 6,6 faizini əvvəlki illərin çoxillik otları təşkil edib.

2020-ci ilin məhsulu üçün qeydə alınmış əkin sahəsinin 37825 hektarını və ya 59,7 faizini dənli və dənli-paxlalılar (qarğıdalısız), 1549 hektarını və ya 2,4 faizini dən üçün qarğıdalı, 158 hektarını və ya 0,2 faizini dən üçün günəbaxan, 45,1 hektarını və ya 0,1 faizini tütün, 3241 hektarını və ya 5,1 faizini kartof, 5449 hektarını və ya 8,6 faizini tərəvəz, 2266 hektarını və ya 3,6 faizini bostan bitkiləri, 8708,3 hek-



tarını və ya 13,7 faizini cari ilin çoxillik və birillik otları, 4163,6 hektarını və ya 6,6 faizini isə əvvəlki illərin çoxillik otları təşkil edib.

***2020-ci ilin məhsulu üçün əkin sahələrinin strukturu***




Ümumi əkin sahəsinin 2095 hektarı və ya 3,3 faizi Naxçıvan şəhərinin, 17115 hektarı və ya 27,0 faizi Şərur, 16172 hektarı və ya 25,5 faizi Babək, 3937 hektarı və ya 6,2 faizi Ordubad, 8213 hektarı və ya 12,9 faizi Culfa, 9567 hektarı və ya 15,1 faizi Kəngərli, 2659 hektarı və ya 4,2 faizi Şahbuz, 3647 hektarı və ya 5,8 faizi Sədərək rayonlarının payına düşüb.

Aqrar sahədə nəzərdə tutulan xidməti işlərin yerinə yetirilməsini sürətləndirmək, sahibkarların əməyini yüngülləşdirmək, onların müasir texnika ilə vaxtında və güzəştli şərtlərlə təmin edilməsi məqsədilə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən 177-si 2020-ci ilin yanvar-may aylarında olmaqla, cəmi 2916 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilmişdir. 2020-ci ilin 5 ayında 133 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə icarəyə verilmiş, 4 ədədi nağd yolla satılmışdır.

Muxtar respublikada keyfiyyətli toxum istehsalının yaradılması diqqətdə saxlanılmış, cari ilin ötən dövründə “Bərəkət Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyəti yenidən qurulmuşdur. Cəmiyyətin istifadəsində 90-a yaxın texnika, 2 min hektara yaxın torpaq sahəsi, anbarlar, qarışıq yem istehsalı sahəsi və satış mərkəzi mövcuddur ki, bütün bunlar keyfiyyətli və tələbata uyğun toxum sortlarının istehsalına və satışına, daxili tələbatın ödənilməsinə geniş imkanlar yaratmaqdadır.

Cari ilin ilk beş ayında müasir meliorasiya və irriqasiya sistemlərinin yaradılması istiqamətində Araz Su Anbarından qidalanan nasos stansiyasının və təzyiqli boru xəttinin, Şahbuz rayonunun Külüs kəndində nasos stansiyasının, Türkeş, Sələsüz, Mərəlik kəndlərinin ərazisində və Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində qapalı suvarma şəbəkələrinin tikintisi davam etdirilmişdir.

Bitkiçilik sahəsində görülən işlərin əhəmiyyətini qeyd edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***“Ərzaq təhlükəsizliyinin təmin olunması üçün, ilk növbədə, şərait yaradılmalı, torpaqlardan səmərəli istifadə olunmalı, texnika və toxum təminatı həyata keçirilməlidir”.***

Torpaq sahələrinin əkin dövriyyəsinə qatılması prosesinin



uğurla davam etdirilməsi tələbatın yerli məhsullar hesabına ödənilməsinə, səmərəli məşğulluğun təmin olunmasına, ümumilikdə, muxtar respublika iqtisadiyyatının dinamik və davamlı inkişafına yeni imkanlar yaradır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***



***Hər gün, hər saat dəyişən Şərur başdan-başa, sözün həqiqi mənasında, hər sahədə yeni quruculuq donundadır. Gündən-günə sayı artan təhsil, səhiyyə, mədəniyyət ocaqlarının yeni binaları, salınan yaşayış massivləri, emal və istehsal müəssisələrinin həyata vəsiqə alması, insanların məşğulluq probleminin həllinə nail olunması, informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin tətbiqi... Bunlar Şərurun bugünkü mənzərəsidir.***

*Müasirləşən bölgələrimiz*

# Şərur yeni inkişaf müstəvisində

Rayon mərkəzi olan Şərur şəhəri, bölgənin kəndləri bu gün füsunkar bir gözəlliyə qovuşub, yenilənib, müasirləşib. Kəndlə şəhər arasındakı fərqin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər bəhrələrini verib. Kənd yaşayış məntəqələrində müasir infrastruktur yaradılıb. Həyatın bütün sahələrində qazanılan uğurlar isə getdikcə artmaqdadır.

Son 25 ildə rayonda həyata keçirilən quruculuq tədbirlərinin həcmi o qədər böyükdür ki, onları adbaad sadalamaq mümkün deyil. Təkcə 2020-ci ilin ötən dövründə inşası başa çatdırılan və hazırda davam etdirilən obyektlərə diqqət yetirmək kifayətdir ki, rayonda həyata keçirilən quruculuq tədbirlərinin coğrafiyası barədə təsəvvürə malik olasan. Belə ki, rayonda iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün 2020-ci ilin yanvar-may aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 26 milyon 687 min 800 manat həcmində vəsait yönəldilib. Tikinti-quraşdırma işlərində istifadə olunmuş vəsait 25 milyon 715 min manat təşkil edib.

Yaşayış məntəqələrinin abadlaşdırılması və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi, həmçinin insanların sosial rifah halının yaxşılaşdırılması, əhalinin təmiz və keyfiyyətli içməli su ilə təmin olunması, kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində həyata keçirilən tədbirlər rayon sakinləri, idarə, müəssisə və təşkilatlarda çalışan əməkdaşlar tərəfindən onlara göstərilən qayğı kimi dəyərləndirilir.

Onu da qeyd edək ki, əhalinin həyat səviyyəsinin yaxşılaşması fərdi yaşayış evlərinin tikintisinə də müsbət təsir göstərib. 2020-ci ilin birinci rübündə rayonda əhalinin şəxsi vəsaiti hesabına, ümumilikdə, 7 min 460 kvadratmetr yaşayış sahəsi istifadəyə verilib ki, bu da 2019-cu ilin müvafiq dövründəki göstəricidən 0,3 faiz çoxdur.

Bəhs olunan dövrdə rayonda 13 müxtəlif təyinatlı obyekt tikilib, yenidən qurulub və ya əsaslı təmir edilib.

Aprel ayında rayon mərkəzində Mərasim evi və dini icma üçün iş otaqlarının, "Çomaxtur" elektrik yarımstansiyasının, may ayında isə Məmmədsabir kəndində kənd və xidmət mərkəzlərinin, həkim ambulatoriyasının, Muğancıq-Mehrabda kənd və xidmət mərkəzlərinin, tam orta məktəb binasının, feldşer-mama məntəqəsinin tikilib istifadəyə verilməsi şərurlularda böyük sevinc hissi yaradıb.

Hazırda 20-dək ünvanda müxtəlif istiqamətli tikinti və ya yenidənqurma işləri həyata keçirilir.

Onlardan biri Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanına əsasən bölgədə inşası aparılan Sənaye Məhəlləsidir. Məlumat üçün bildirək ki, ötən il dekabr ayının 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Şərur Sənaye Məhəlləsinin yaradıldığı əraziyə gəlib, görülən işlərlə tanış olub, tikinti işlərinin layihəyə uyğun aparılması, daha çox tələbat olan məhsulların istehsalına üstünlük verilməsi, mühəndis-texniki tələblərə əməl olunması barədə tapşırıqlar verib.

Qeyd edək ki, Sənaye Məhəlləsində ilkin olaraq bitki yağı, ofis ləvazimatları, kağız-torba və corab istehsalı sahələri yaradılacaq. Məqsəd tələbatın müəyyən hissəsini yerli istehsal hesabına ödəmək, əhalinin məşğulluq səviyyəsini artırmaqdır. Tikinti işlərinin keyfiyyətlə aparılması, obyektlərin vaxtlı-vaxtında təhvil verilməsi üçün inşaatçılara hərtərəfli şərait yaradılıb. Texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunur. İnşaat işləri başlanandan əhalinin məşğulluğunun artırılmasına da imkan yaranıb.



Müstəqilliyimizin, azadlığımızın, dinimizin, inkişafımızın, tərəqqimizin rəmzi olan bayrağımıza böyük sevginin ifadəsi kimi bu gün rayonda Bayraq Meydanı tikilir. Rayonun Yuxarı Daşarx kəndi ərazisində inşa olunan Bayraq Meydanının ümumi sahəsi 3 min kvadratmetrdir. Meydanın ətrafında istirahət parkı yaradılacaq. Meydanda işıqlandırma sistemi qurulacaq, yaşıllıqlar salınacaq.

Şərur şəhərinin bir neçə ünvanında istirahət guşələrinin yenidən qurulması və genişləndirilməsi şərurlular tərəfindən onlara göstərilən qayğı kimi dəyərləndirilir. Hazırda rayon mərkəzinin dəmiryol stansiyası ərazisində 6250, inşası aparılan bazar ərazisində 3080, şəhər univermağının yaxınlığında 1369, tikintisi başa çatdırılmış Təqaüdçülər klubu ərazisində 2350 kvadratmetr sahədə həmin tədbirlər davam etdirilir. Onu da qeyd edək ki, Təqaüdçülər klubunun qarşısında musiqili fəvvarə də inşa olunur. Tikintisi yekunlaşdırılmış "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon filialının inzibati binasında müştərilərə yüksək səviyyədə xidmət üçün hərtərəfli şərait yaradılıb.

Rayondakı inşaat obyektləri müxtəlif təyinatlıdır. Belə ki, "N" hərbi hissə üçün infrastruktur obyektlərinin, Şərur şəhərində zirzəmisi ilə birlikdə 6 mərtəbədən ibarət olan 40 mənzilli yaşayış binasının, Dizə kəndi ərazisində gücü saniyədə 271 litr olan sutəmizləyici qurğu və 27 min kubmetr həcmində 3 ədəd su anbarının, rayon mədəniyyət sarayının, Şəhriyar kəndində uşaq musiqi məktəbi binasının, avtovağzal binasının tikintisi, 7 yaşayış məntəqəsini birləşdirən 21 kilometr uzunluğunda yolda inşaat işləri davam etdirilir.

Cəlilkənddə içməli su xəttinin, Şərur şəhəri ilə Naxçıvan-Sədərək magistral yolunu birləşdirən avtomobil yolunun çəkilişi aparılır. Şərur şəhərinin Nizami küçəsində isə 35/10 kilovoltluq "Subartezian" yarımstansiyasının qurulması rayonun quruculuq xəritəsini daha da genişləndirib.




Həyata keçirilən bütün layihələr bir məqsədə ünvanlanıb: şərurluların yaşayış tərzini yaxşılaşdırmaq, insanların layiq olduğu səviyyədə yaşamasına nail olmaq. Bunun üçün bölgə sakinləri də təşəbbüskarlıqlarını günü-gündən artırır, təsərrüfatın müxtəlif sahələrində çalışır, məhsul bolluğu yaratmağa səy göstərirlər. Bu prosesdə rayonda son illərdə yaradılmış mütərəqqi təsərrüfat forması olan ailə təsərrüfatlarının əməyi xüsusi qeyd olunmalıdır.

Rayonun iqtisadiyyatında taxılçılıq mühüm yer tutur. Bölgənin məhsuldar torpaq sahələri, uzun illərin təcrübəsi və yaradılan şərait bu sahənin inkişafına marağı getdikcə artırır. Bu səbəbdəndir ki, ötən il də taxılçılıqda yüksək göstəricilərə nail olunub. Belə ki, 3524 hektar sahədən 12 min 17 ton buğda, 603 hektar sahədən 1930 ton arpa tədarük edilib. Cari ildə 4865 hektar sahədən taxıl tədarük olunacaq.

Şərurun torpaq mülkiyyətçiləri 2019-cu ildə 4647 hektar sahədə dənli və dənli-paxlalı bitkilər əkiblər. Əkinlərə vaxtlı-vaxtında aqrotexniki qulluq göstərilib. Məhsuldarlıq orta hesabla 33,6 sentner təşkil etməklə, 15 611 ton məhsul istehsalına nail olunub. Dənli-paxlalılar əkilmiş 520 hektar sahədən 1664 ton məhsul tədarük edilib. 717 hektar dən üçün qarğıdalı əkini sahəsindən 6 min 740 ton məhsul yığılıb. Dən üçün günəbaxan əkini sahəsində də yüksək artım müşahidə edilib. Belə ki, torpaq mülkiyyətçiləri 92 ton məhsula sahib olublar. Bu, əvvəlki illə müqayisədə 2,9 faiz çoxdur.

İkinci çörək sayılan kartofun əkilib-becərilməsinə də ciddi önəm verilib. Bəhs olunan dövrdə 1094 hektar kartof əkini sahəsindən 16 min 890 ton kartof tədarük edilib.

Bostan məhsullarının əkilib-becərilməsinə üstünlük verilən bölgədə torpaq mülkiyyətçiləri 482 hektar bostan bitkiləri əkini sahəsindən 6 min 685 ton bostan məhsulları yığıblar.

Muxtar respublikamızda meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı qəbul edilmiş Dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi də rayonda diqqətdə saxlanılıb. Belə ki, torpaq mülkiyyətçiləri və sahibkarlar 2010 hektar tərəvəz bitkiləri əkini sahəsindən 38 min 12 ton tərəvəz məhsulları, barverən meyvə bağlarından 20 min 214 ton, üzüm bağlarından 1582 ton məhsul tədarük ediblər.

Rayonda tütünçülüyə də maraq artır. Bəhs olunan dövrdə 2,5 hektar sahədən 3,4 ton qurudulmuş tütün yığılıb.

Rayonda təzə və ekoloji cəhətdən sağlam ət, süd və süd məhsullarına olan tələbatı torpaq mülkiyyətçiləri yerli istehsal hesabına ödəməyə çalışırlar. Bölgədə baytarlıq xidmətinin düzgün təşkili bu sahədə də nəzərəçarpan uğurların qazanılmasına imkan verib. Bunun nəticəsidir ki, bəhs olunan dövrdə rayonda diri çəkidə 8627,1 ton ət, 28 min 707,6 ton süd, 22 258 min ədəd yumurta, 194,4 ton yun istehsal edilib.

Onu da qeyd edək ki, rayonda son illər arıçılığa da maraq xeyli artıb. Bu səbəbdəndir ki, ötən il bölgədə 188 ton bal istehsal olunub.

Ümumilikdə, 2019-cu ildə rayonun kənd və balıqçılıq təsərrüfatlarında 155962,3 min manatlıq məhsul istehsal olunub ki, bu da əvvəlki illə müqayisədə 4,4 faiz çoxdur.

Torpaq mülkiyyətçilərinin istehsal etdikləri məhsulların satışına şərait yaradılıb, onların Naxçıvan şəhərində keçirilən kənd təsərrüfatı məhsullarının satış yarmarkalarında iştirakı təmin edilib. Həmçinin müxtəlif təsərrüfat sahələri üzrə muxtar respublika paytaxtında keçirilən festivallarda şərurlu sahibkarlar, torpaq mülkiyyətçiləri, ailə təsərrüfatçıları yüksək yerlərə sahib olublar. Ötən il rayonda da keçirilən "Ailə təsərrüfatı məhsulları" festivalı yaddaqalan olub.

Məlumat üçün qeyd edək ki, əvvəlki illərdə olduğu kimi, 2019-cu ilin də bəhs olunan dövründə rayonun bir sıra yaşayış məntəqələrində yeni təsərrüfat sahələri yaradılıb. İstehsal olunan meyvə və tərəvəz məhsullarının tələbatdan artıq hissəsi müvafiq mövsümlərdə satılması üçün soyuducu anbarlarda saxlanılıb.

Ötən il qazanılan uğurlar torpaq mülkiyyətçilərinin ailə büdcəsinə xeyli gəlir gətirib. Bundan ruhlanan Şərurun əmək adamları 2020-ci ilin yanvar-may aylarında da nailiyyətlər qazanmağa səy göstəriblər. "İxrac ili"nin bəhs olunan dövründə məhsul istehsalçılarının müasir kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 240 min 700 manat dəyərində 18 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası lizinq yolu ilə güzəştli şərtlərlə bölgədə fəaliyyət göstərən sahibkarlara satılıb.



Mövcud şəraitdən səmərəli istifadə olunmasına ciddi diqqət yetirilməsinin nəticəsidir ki, 1 iyun 2020-ci il tarixə olan məlumata əsasən Şərur rayonunda 11344 hektar sahədə yazlıq bitkilər əkilib. Vaxtlı-vaxtında aqrotexniki qulluq göstərildiyindən sahələrdə bol məhsul yetişdirilib. Ümumilikdə, bəhs edilən dövrdə rayonun torpaq mülkiyyətçiləri 17 milyon 154 min 900 manatlıq kənd təsərrüfatı məhsullarına sahib olublar. Bu, 2019-cu ilin yanvar-may ayları ilə müqayisədə 3,4 faiz çoxdur.

Rayonun iqtisadiyyatında heyvandarlıq mühüm yer tutur. Bunun ifadəsidir ki, yanvar-may aylarında diri çəkidə 2314,3 ton ət, 14096 ton süd, 11800,2 min ədəd yumurta istehsal edilib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 2,6 faiz, süd istehsalı 1,7 faiz, yumurta istehsalı 1 faiz artıb.

Şərur rayonunda sahibkarlığın inkişafına göstərilən qayğı da ildən-ilə artır, hər il yeni istehsal və emal müəssisələri yaradılır. Bölgə sahibkarları "İxrac ili"ndə daha da əzmkarlıq nümayiş etdirirlər. Cari ilin yanvar-may aylarında 44 milyon 793 min 100 manatlıq sənaye məhsulunun istehsal olunması bunu bir daha sübut edir. Göründüyü kimi, torpağa ən qiymətli sərvət kimi baxan, zəhmətdən qorxmayan şərurlu sahibkarlar, torpaq mülkiyyətçiləri, ailə təsərrüfatları "İxrac ili"nin ilk günlərindən uğurlar qazanmaq üçün yaradılan şəraitdən lazımınca istifadə edirlər. Biz isə arzu edirik ki, onların zəhməti ilə hasilə gələn məhsullar ixrac məhsullarımız içərisində daha çox olsun.

Son olaraq qeyd edək ki, 25 il ərzində sürətli inkişaf yolu keçən bu bölgədə görülən işlərin həcmi o qədər böyükdür ki, bunlar barədə bir qəzet yazısında ətraflı bəhs etmək mümkün deyil. Təhsil, mədəniyyət, səhiyyə, rabitə və digər sahələrdə qazanılan uğurlara da hərtərəfli dövlət qayğısı hesabına nail olunub. Bu səbəbdəndir ki, Şərur rayonuna dünən yolu düşənlər bu gün yenidən burada olarkən təəccüblərini gizlədə bilmirlər. Hər addımda bir yenilik, hər gün bir təzəliklə rastlaşmaq isə şərurlular üçün adi hala çevrilib. Bu qədim yurd yeri yenidən qurulduqca daha da gözəlləşir.

*Görülən bu işlərin blokada şəraitində yaşayan bir məmləkətdə reallaşması kiçik məsələ deyil. Və bütün bunların təməlində doğma yurda bağlılıq, sevgi və məhəbbət, insan amilinə, yurd amilinə böyük diqqət dayanır.*

**Muxtar MƏMMƏDOV**
**Elman MƏMMƏDOV**

**XX əsr məşhur Azərbaycan kinematoqrafiya nümunələrindən biri olan “Nəsimi” filmində Əmir Teymurun dilindən səslənən məşhur bir fraza vardır: “...Bəzək-düzəksiz, sadə, el dilində. Necə deyirəm, elə də yaz...”**

**Dövrün məşhur sərkərdəsi Fateh Teymurun məktub yazılan zaman bu cür ifadə işlətməsi heç də təsadüfi deyildi. O, yaxşı bilirdi ki, insanlara fikir tam, dolğun çatdırılmalı, düşüncələr sərbəst ifadə olunmalı və söz azadlığı təmin edilməlidir. Təbii ki, totalitar sovet rejiminin hakim olduğu bir dönəmdə Azərbaycan filmlərində yer alan bu düşüncələr ancaq belə sətiraltı məna ilə insanlara çatdırıla bilərdi.**

**Xülasə, yazıma əbəs yerə bu sitatla başlamadım. Çünki dünyada informasiyanın sərbəst və sürətlə yayıldığı müasir dövrdə söz və mətbuat azadlığına münasibət bir çox yönləri ilə diqqət çəkir. Şübhəsiz ki, millətlərin tərəqqisində, milli şüurun oyanışı və milli özünüdərk prosesində, dünya sivilizasiyasından yararlanmasında mətbuatın özünəməxsus xüsusi yeri və rolu var. Mətbuatın cəmiyyətin bütün sahələrinə təsiri o qədər güclüdür ki, onu IV hakimiyyət kimi qiymətləndirirlər. Bu mənada, Azərbaycanın maarifpərvər ziyalılarının, klassik ədəbi nümunələrin yaradıcılarının mətbuatı “xalqın görən gözü, eşidən qulağı, danışan dili” adlandırması da əbəs yerə deyil.**

*Azərbaycan milli mətbuatı — 145*

# Milli mətbuatımız: zəngin ənənələr üzərində demokratik inkişaf yolu

### *Əsrdən uzun “Əkinçi” yolu*

Hələ XX əsrdə Azərbaycanda mətbuat közərtilərinin yeni alovlanmağa başladığı bir dönəmdə əsas problemlərdən biri də senzuranın mövcud olması idi. Mətbuat üzərində senzura o dövrdə elə “mühüm məsələ” idi ki, hətta maarifçi, vətənpərvər, ziyalı Həsən bəy Zərdabi “Əkinçi”nin nəşrinə icazə alarkən, dövrün hakim qüvvələri, ilk növbədə, qəzetə senzura nəzarətini həyata keçirəcək şəxsi müəyyən etmişdilər. Bu “məsuliyyətli vəzifə” isə, o dövrdə Bakının general-qubernatoru olan Staraselskiyə tapşırılmışdı. “Əkinçi” cığırı ilə başlanan Azərbaycan mətbuatı 123 il senzura buludlarını başı üzərində gəzdirdi. Özü ilə bərabər sərt sazaq küləyi gətirən buludlar mətbuat alovunu közərtdi, lakin söndürə bilmədi. Sonralar “Əkinçi”nin ənənələrini davam etdirən “Ziya”, “Ziyayi-Qafqaziyyə”, “Kəşkül”, “Şərqi-Rus”, “Molla Nəsrəddin”, “Həyat”, “İrşad”, “Açıq söz”, “Füyuzat”, “Zənbur”, “Babayi-əmir” kimi qəzet və jurnallar milli mətbuatımızı çoxşaxəli inkişaf yoluna çıxarmağa müvəffəq oldu. Təəssüf ki, fəaliyyət göstərdikləri zaman çərçivəsində “Əkinçi” kimi həmin qəzet və jurnallar da senzuradan yaxa qurtara bilmədi.

### *Mətbuatın sovet dövrü...*

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra mətbuatın inkişafı daha çox partiyalı mövqe ilə bağlı idi. Respublikanın “Kommunist”, “Bakinskiy raboçiy”, “Vışka”, “Bakı”, “Ədəbiyyat və incəsənət” və sair tanınmış mətbuat orqanlarında kommunist ideologiyası ilə bağlı məsələlərlə yanaşı, respublikanın iqtisadi, elmi, mədəni inkişafı ilə əlaqədar problemlər az da olsa, öz əksini tapırdı. Gündəlik ictimai-siyasi prosesləri işıqlandıran zaman ideoloji buxovların mövcudluğuna baxmayaraq, öz səhifələrində müxalif fikirlərə də yer verən, o dövr üçün, doğrudan da, vətənpərvər ruhlu məqalələr dərc edən mətbuat orqanlarının milli şüurun və özünüdərkin formalaşdırılmasında böyük rolu olmuşdur. Bu qəzetlərdə işıq üzü görən, xalqımızın dil, ədəbiyyat və mədəniyyətinə həsr olunan, Azərbaycançılıq ideyasına xidmət edən yazılar bu gün də aktual olaraq qalır. Sovet hakimiyyəti illərində Azərbaycan mətbuatı kommunist ideologiyasının güclü təsiri altında fəaliyyət göstərsə də, o öz milli varlığını qoruyub saxlaya bilmiş, əldə etdiyi zəngin ənənələri davam etdirərək respublikanın ictimai-siyasi həyatında fəal rol oynamışdır.

### *Tarixi reallıq: mətbuatın müstəqillik illərində özünəqayıdışı*

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən və ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışından sonra milli mətbuatımız da, məhz ikinci həyatına qovuşdu. Ulu öndərin “Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında” 1998-ci il 6 avqust tarixli Fərmanı ilə ölkəmizdə senzura ləğv edildi, söz və mətbuat azadlığının əsası qoyuldu, mətbuat cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrildi.




Bu fərmandan cəmi bir il sonra, 1999-cu ildə Kütləvi İnformasiya Vasitələri haqqında Azərbaycan Respublikası Qanununun və ardıcıl olaraq digər normativ-hüquqi aktların qəbulu həyata keçirildi. Həmçinin 2001-ci ildə Azərbaycan jurnalistlərinin I qurultayının keçirilməsi və Mətbuat Şurasının yaradılması da milli mətbuatın inkişafında mühüm mərhələ təşkil edir.

Təməli dahi şəxsiyyət tərəfindən qoyulan milli dövlətçilik quruculuğunu, sosial yüksəliş və davamlı iqtisadi inkişaf konsepsiyasını yeni mərhələdə inamla və uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də fəaliyyətində bu ənənəyə sadiq qalaraq kütləvi informasiya vasitələrinin inkişafına şərait yaradılmasını prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirdi. 2003-cü ildən başlayaraq ölkəmizdə mətbuat orqanlarının maddi-texniki bazasının gücləndirilməsi və jurnalist əməyinin qiymətləndirilməsi sahəsində bir sıra fərman və sərəncamlar imzalandı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan milli mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında” 2020-ci il 30 iyun tarixli Sərəncamı milli mətbuat tarixinə və zəngin ənənələrinə verilən yüksək qiymətlə yanaşı, kütləvi informasiya vasitələrinin gələcək inkişaf konsepsiyalarının da müəyyənləşdirən mühüm dövlət sənədidir: ***“Ölkəmizdə müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran, habelə dövlətçilik ənənələrinə bağlı və xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafı prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində saxlanılır. Bununla belə, kütləvi informasiya vasitələri də ölkəmizdə həyata keçirilən köklü islahatlardan kənarda qalmamalı, kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi hazırkı dövrdə qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğunlaşmalı, cəmiyyətimizin obyektiv və peşəkar şəkildə məlumatlandırılması sahəsində öz səylərini daha da gücləndirməlidir. Modernləşmə, rasionallıq, obyektivlik, kreativlik, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi medianın inkişafını şərtləndirən başlıca amillər olmalıdır”.***

Fərəhli haldır ki, bu gün ölkə mətbuatı sürətli inkişaf dövrünə qədəm qoyub və mətbuata qayğı dövlət siyasətinə çevrilib. Günümüzdə mətbuatın səmərəli fəaliyyəti üçün yaradılmış demokratik şərait ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında yeni informasiya mühitinin formalaşdığını bir daha təsdiq edir. Bu mühiti şərtləndirən əsas amillər isə sürətli sosial-iqtisadi inkişaf, ictimai həyatın bütün sahələrinin yeniləşməsidir.

### *Blokadadan intibaha və ya informasiya inqilabı*

Ümumiyyətlə, son 25 ildə bütün sahələrdə əldə olunan inkişaf və yüksəliş muxtar respublikanın kütləvi informasiya orqanlarını da əhatə edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında” 2000-ci il 29 mart tarixli Sərəncamına əsasən muxtar respublikanın bütün rayonlarında fəaliyyət göstərən mətbuat orqanları normal iş şəraiti ilə təmin edilmiş, onların maddi-texniki bazaları gücləndirilmişdir. Muxtar respublikada Televiziya və Radio, Mətbuat şuralarının yaradılması və fəaliyyətlərinin genişləndirilməsi də bu sahədə görülən işlərin məntiqi davamıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Mətbuatın dostu” adına layiq görülməsi də mətbuata olan böyük qayğı və himayəyə verilən jurnalist dəyəri idi.

Sevindirici haldır ki, bu gün dünyada ictimai fikrin formalaşmasında və baş verən hadisələr barəsində insanların məlumatlandırılmasında mühüm rol oynayan vasitələrdən biri olan qəzetlərdə mövzu aktuallığı və əhəmiyyətliliyi Naxçıvan Muxtar Respublikasında da diqqətdə saxlanılan prioritet məsələlərdən biridir. Belə ki, bu gün diyarımızın paytaxtının, eləcə də hər bir rayonunun özünün mətbu orqanı vardır və onların dövriyyəliyi təmin edilib. Jurnalistika cığırına yeni qədəm qoyanlar üçün məktəb rolunu oynayan “Şərq qapısı” qəzetinin rolunu isə xüsusi vurğulamaq lazımdır. 2010-cu il iyulun 22-də qəzet redaksiyasının, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin yeni binasının və mətbəənin istifadəyə verilməsi ilə qəzetin maddi-texniki bazası gücləndirilmiş, tarixi bir əsrə yaxın bu qocaman mətbuat orqanının normal fəaliyyəti üçün hərtərəfli iş şəraiti yaradılmışdır.

Bu gün elektron medianın inkişafının da diqqət mərkəzində saxlanıldığı Naxçıvanda qəzetlərlə yanaşı, televiziya və radioların da maddi-texniki bazası gücləndirilir. Əminliklə deyə bilərik ki, Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsi yüksək peşəkarlığa və bacarığa malik kadr potensialı ilə ictimaiyyətin informasiya təminatını tam ödəyə bilir, çətin və şərəfli işlərində missiyalarını uğurla yerinə yetirirlər. Naxçıvan Televiziyasının, bütövlükdə, cəmiyyət qarşısındakı sosial məsuliyyəti, tamaşaçının dünyagörüşünün formalaşmasında, etik-əxlaqi və mənəvi-estetik dəyərlər sisteminin quruluşunda özünəməxsus rolu vardır.

Şübhəsiz ki, bu gün mətbuat nümayəndələri cəmiyyət qarşısında məsul vəzifələr daşıyır. İnsanlar jurnalistlərdən peşəkarlıq, dolğun və qərəzsiz informasiya, obyektiv mövqe gözləyirlər. Muxtar respublikada sağlam və peşəkar mətbuatın formalaşmasında rol oynayan vasitələrdən biri də məhz jurnalistlərin sərbəst formada müxtəlif mövzuları əks etdirən tənqidi materiallar hazırlamasıdır. Kütləvi informasiya vasitələrində analtik təhlil edilən və tənqidi xəbərlərin hazırlanması muxtar respublikada söz və mətbuat azadlığının, eyni zamanda jurnalistlərin müstəqil fəaliyyət göstərməsinin daha bir ifadəsidir.

Bu, bir reallıqdır ki, müasir dünyamızın yeni çağırışlarından, tələbatlarından biri də internetdir. Artıq insanlar sürətli internet hesabına gündəmin aktual xəbərlərini operativ olaraq əldəetmə imkanına malikdir. Mövzunun aktuallığı Naxçıvan Muxtar Respublikasında da hər zaman diqqət mərkəzində saxlanılmış, vətəndaşların rahatlığı, habelə jurnalistlərin peşəkar fəaliyyətləri üçün bu sahədə mühüm işlər görülmüşdür. Belə ki, bu gün muxtar respublikamızın yaşayış məntəqələrinə fiber-optik kabel xətlərinin çəkilişi və sürətli internetə çıxış imkanının yaradılması insanların informasiya tələbatının tam, dolğun ödənilməsinə imkan verir. Muxtar respublikanın yaşayış ərazilərinin 93 faizində genişzolaqlı internet, 83 faizində isə simsiz internet xidməti göstərilir. Bununla da, Naxçıvan Muxtar Respublikası informasiya blokadasını tam yara bilmiş, informasiya blokadasından informasiya təhlükəsizliyinin etibarlı qorunduğu bir muxtar respublikaya çevrilmişdir.

Bu sahədə reallaşdırılan ardıcıl və məqsədyönlü tədbirlərdən biri də Ali Məclis Sədrinin 2019-cu il 19 sentyabr tarixli Fərmanına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılmasıdır. Fondun əsas missiyası kütləvi informasiya vasitələrinin müstəqilliyini dəstəkləmək, cəmiyyət və kütləvi informasiya vasitələri arasında səmərəli əməkdaşlığı genişləndirmək, habelə jurnalistlərin peşəkarlığı və məsuliyyətinin artmasına şərait yaratmaqdan ibarətdir. Həmçinin fondun yaradılması muxtar respublikada fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi, kütləvi informasiya vasitələri ilə cəmiyyət və dövlət arasında münasibətlərin tənzimlənməsi baxımından müstəsna əhəmiyyətə malikdir.

Günümüzdə muxtar respublikaya gələn turistlərin sayının ildən-ilə daha da artmasının bir səbəbi burada yaradılan ən müasir infrastruktur, mövcud sabitlik və təhlükəsizlikdirsə, digər səbəbi onlayn mediada və sosial şəbəkələrdə Naxçıvanın təbliğatının yüksək səviyyədə qurulmasıdır. Bu həm də onlayn media sahəsində Naxçıvan təcrübəsinin nümunəvi olduğunu göstərir. Ötən ilin noyabr ayında Naxçıvan şəhərində “Onlayn media və sosial şəbəkələr: yeni dövrün çağırışlarında jurnalist peşəkarlığı və cəmiyyətin mənafeləri” mövzusunda beynəlxalq konfransın keçirilməsi sadalanan fikirlərin məntiqi davamıdır.

### *Gənclər siyasəti və peşəkar kadrların hazırlanması dövlətin prioritet istiqamətlərindəndir*

Sevindirici haldır ki, muxtar respublikamızda gənclərin də potensialından tam və düzgün istifadə olunur. Hər zaman dövlətin diqqət və qayğısı ilə əhatə olunan gənclər bu gün həyatın bütün sahələrinə inteqrasiya olunmaqdadır. Əminliklə deyə bilərik ki, muxtar respublikanın müxtəlif kütləvi informasiya vasitələrində çalışan jurnalistlərin də mütləq əksəriyyəti gənclərdən ibarətdir. Onların təşəbbüskarlığının dəstəklənməsi, hər bir işçinin inkişafı üçün bərabər şəraitin yaradılması və onların karyera yüksəlişinin ədalət prinsiplərinə əsaslanaraq həll olunması prioritet məsələdir.

Həmçinin jurnalist kadrların hazırlanması, gənc jurnalistlərin işə cəlb olunması da mətbuatın inkişafında mühüm amildir. Naxçıvan Dövlət Universitetində hər il ali təhsilli jurnalist kadrlar yetişir. Habelə buradakı Media Mərkəzinin nəzdindəki “Universitet” televiziyası və “Nuhçıxan” radiosunda gənc jurnalistlər nəzəri biliklərlə yanaşı, ilkin peşə vərdişlərinə yiyələnir, ixtisaslı kadr kimi Naxçıvan mətbuatına öz töhfələrini verirlər. Peşəkar kadrların hazırlanması məqsədilə Jurnalistika ixtisası tələbələrinin də hamiliyə verilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları xüsusi əhəmiyyət kəsb edir.

***P.S.*** *Bu gün mətbuatın inkişafı sahəsində həyata keçirilən tədbirlər və qazanılan uğurlar onu deməyə əsas verir ki, muxtar respublikamızda güclü mətbuat ordusu formalaşıb, söz və mətbuat azadlığı mütləq surətdə təmin olunub. Əminliklə deyə bilərik ki, Naxçıvan Muxtar Respublikasında əli qələm tutan jurnalistlər yalnız bir amala xidmət edir. Dahi yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin “Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda mübarizə aparmaqdan ibarətdir” amalına...*

**Arif BAYRAMOV**
***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Miqrasiya Xidmətinin əməkdaşı***

***Məqalə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun elan etdiyi yaradıcılıq müsabiqəsinə təqdim edilir.***

## Bələdiyyələrə metodik köməklik göstərilmişdir

Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə yeni formalaşan yerli özünüidarəetmə orqanlarına metodik köməklik göstərilib. Nazirliyin işçilərindən ibarət qrup muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən bələdiyyələrin kargüzarlıq sənədlərinə baxış keçirib. Bələdiyyələr çatışmayan jurnal və qovluqlarla təmin edilib, sənədlərin işlənilmə qaydaları izah olunub. Keçirilən görüşlərdə bələdiyyə sədrləri və üzvlərinə qanunvericiliyin tələbləri izah edilib, yol verilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması üsulları göstərilib və tövsiyələr verilib.

Görüşlərdə qeyd olunub ki, muxtar respublikada bütün bələdiyyələr üçün yaxşı iş şəraiti yaradılıb, yeni inzibati mərkəzlərdə xidməti otaqlar ayrılıb, lazımi təchizatla təmin edilib. Bunun müqabilində bələdiyyələr işlərinə məsuliyyətlə yanaşmalı, vaxtında kargüzarlıq sənədlərini işləməli, qəbul edilən bələdiyyə qərarlarında qanunvericiliyin tələbləri gözlənilməlidir. Bələdiyyə sədri və qulluqçusu üçün nəzərdə tutulan vəzifələrin icrası təmin edilməlidir.

***Naxçıvan Muxtar Respublikası***
***Ədliyyə Nazirliyinin mətbuat xidməti***

Jurnalistin qeydləri

# Yolunuz "Arpaçay" Dövlət Təbiət Yasaqlığına düşərsə...

*Ulu Tanrı insan üçün faydalı, gərəkli nə qədər nemət varsa, yaz yağışı, bahar seli tək pay göndərib yer üzünə. Bu nemətləri isə təbiətin əli ilə bəxş edib bizə. Sanki deyib ki, bu dünyada ömür sürməkdən gözəl nə var?! Əgər ömür-gün sürməyin qədir-qiymətini bilirsinizsə, onda sizə ərməğan etdiyim bu nemətlərin də qədrini bilin, qoruyun, uca tutun, onları nəsildən-nəslə bir estafet kimi ötürün. Aman verməyin tükənsin, məhv olsun...*



Maşın uca dağların ətəklərində üzüyoxuşa yol aldıqca bu labirint fikirləri öz-özümə düşünərək ətrafımdakı uca dağlara, yal-yamaclara, əlvan gül-çiçəklərə, qayalara bürünən mamırlara, arx kənarlarındakı can dərmanı olan bir-birindən şəfalı otlara baxa-baxa irəliləyirik Şərur rayonunun Aşağı Yaycı kəndində yerləşən "Arpaçay" Dövlət Təbiət Yasaqlığına. Budur, artıq yasaqlığın ərazisinə yaxınlaşırıq. Burada bizi qarşılayan mühafizəçi "Şərq qapısı" qəzeti əməkdaşı olduğumuzu öyrəndikdə məmnuniyyətlə bu cənnətməkan əraziyə daxil olmağa icazə verdi. "Arpaçay" Su Anbarının ətrafındakı sıx meşənin füsunkar mənzərəsi, quşların cəh-cəhi, suyun xoş avazı insanın ruhunu dinləndirir. Ulu Tanrı, həqiqətən, diyarımızdan səxavətini əsirgəməyib. Belə gözəlliklərin və nadir nümunələrin isə qorunması ən vacib tədbirlərdəndir. Elə buna görə də qədim diyarımızın ümumi ərazisinin 27 faizini xüsusi mühafizə olunan təbiət əraziləri təşkil edir. Halbuki inkişaf etmiş ölkələrdə bu göstərici 10-12 faizə çatır.

Bu sehrli gözəlliyin seyrindəykən yasaqlığın direktoru Elşən Seyidov da bizə yaxınlaşır. Təbiətin gözoxşayan mənzərəsini seyr edə-edə bu füsunkar məkan haqqında məlumat alırıq. Direktor deyir ki, Naxçıvan Muxtar Respublikasında xüsusi mühafizə olunan təbiət ərazilərinin geniş şəbəkəsi var. Onlardan biri də "Arpaçay" Dövlət Təbiət Yasaqlığıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 23 sentyabr tarixdə imzaladığı Sərəncamla yaradılmış yasaqlıq 9 min 118 hektar ərazini əhatə edir.

Ötən illərdə yasaqlığın flora və faunası daha da zənginləşib, əvvəlki yulğunluqlar xüsusi gözəllik məskəninə çevrilib. Muxtar respublikamızda xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsi və qorunması istiqamətində işlər uğurla davam etdirilir. Buna Ali Məclis Sədrinin "Arpaçay" Dövlət Təbiət Yasaqlığının yaradılması haqqında" 2009-cu il 22 iyun tarixli Fərmanının uğurlu icrası ilə nail olunub. Həmin fərmana uyğun olaraq Şərur, Kəngərli, Babək və Şahbuz rayonlarının ərazilərində 68 min 911,18 hektarlıq "Arpaçay" Dövlət Təbiət Yasaqlığının yaradılması ekologiya sahəsində müəyyən olunmuş strateji xəttin ardıcıl şəkildə davamının məntiqi nəticəsidir. Bu, muxtar respublikamızda ətraf mühitin mühafizəsi, ondan səmərəli istifadə edilməsi, nadir və nəsli kəsilmək təhlükəsində olan bitki və heyvan növlərinin, mədəniyyət və tarixi-memarlıq abidələrinin qorunub saxlanılması, diyarımızın xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişaf etdirilməsi məqsədini daşıyır.

Direktor deyir ki, yasaqlığın "Arpaçay" adlandırılması heç də təsadüfi deyil. Bu ad Naxçıvanın qədim çaylarından biri, Arazın sol qolu olan Arpaçayın adı ilə bağlıdır. Uzunluğu 126 kilometr olan bu çayın mənbəyi Sarıbulaq silsiləsinin yamaclarından başlanır və yeraltı sular, qar və qismən yağış suları ilə qidalanır. Bir zamanlar suvarmada geniş istifadə edildiyindən yay aylarında suyu Araza çatmırdı. Bunu nəzərə alaraq 1977-ci ildə Arpaçay üzərində su anbarı tikilib, 9 sentyabr 2013-cü ildə işə salınıb.





Direktordan onu da öyrəndik ki, bura, sadəcə, təbiətin gözəl və nadir guşələrindən biri deyil. Həm də minillik bəşər tarixini də özündə yaşadır. Son illər Arpaçay vadisində aparılmış arxeoloji qazıntılar nəticəsində Tunc dövrünə, antik dövrə və orta əsrlərə aid bir çox yaşayış yerləri, nekropollar və başqa arxeoloji abidələr qeydə alınıb və tədqiqata cəlb edilib.

Yeri gəlmişkən, qeyd edək ki, Şərur, Kəngərli, Babək, Şahbuz əraziləri, bütövlükdə, muxtar respublikamız çox zəngin bitki örtüyünə, faunaya malikdir. Burada 5 iqlim tipi, 2 min 835 ali bitki növü yayılıb. Bu da Azərbaycan ərazisində yayılan ali bitki növlərinin 63 faizini təşkil edir. Onların arasında nadir ağac və kollar da çoxluq təşkil edir. "Arpaçay" Dövlət Təbiət Yasaqlığının ərazisində əsrlərdən bəri xalq tərəfindən qorunub saxlanılan, nəsildən-nəslə yadigar qalan çoxlu nəhəng Şərq çinarları, narbənd, püstə, innab, çəkil, yunan qozu, müxtəlif şaftalı növləri vardır. Onu da qeyd edək ki, ulu babalarımızın yadigarı olan isti və quraq iqlimi, şoran torpaqları sevən, xüsusi dekorativ görünüşə malik Naxçıvanın nadir narbənd ağacının quruyub tələf olmasının və nəslinin kəsilməsinin qarşısını almaq üçün həmin ağac respublikamızın "Qırmızı kitabı"na daxil edilib.

Elşən Seyidov deyir ki, Naxçıvanın heyvanat aləmini öyrənmək də həmişə Azərbaycan və dünya zooloqlarının diqqət mərkəzində olub. Muxtar respublikanın faunası barədə verilən məlumatlardan belə nəticəyə gəlmək olur ki, Naxçıvan heyvanat aləminə görə Azərbaycanın bir çox regionlarından kəskin surətdə fərqlənir. Naxçıvan Muxtar Respublikasında olan heyvanların miqdarı bütün qruplar üzrə Azərbaycan faunasının 60-70 faizini təşkil edir. Belə nadir fauna nümunələri Arpaçay ərazisində də məskən salıb. Dövlətimizin məqsədyönlü şəkildə atdığı bu addım, yəni "Arpaçay" Dövlət Təbiət Yasaqlığının yaradılması bu heyvanat aləminin qorunmasına və daha da zənginləşməsinə şərait yaradıb. Bütün bunları bir daha nəzərdən keçirdikdə, bütövlükdə, Naxçıvanı, o cümlədən "Arpaçay" Yasaqlığını endemik və yeni növlər məskəni adlandırmaq olar.

Direktorun sözlərinə görə, "Arpaçay" Dövlət Təbiət Yasaqlığı yarandığı vaxtdan bəri ətraf mühitin mühafizəsi və ekoloji tarazlığın, nadir, endemik və nəsli kəsilmək təhlükəsi olan gözəl dazotu, qurdqulağı, süsən, ağıpiyli ardıc, akaka soğanı, təkdənli buğda, gövdəsiz yumaqotu, çılpaq dorema, zümrüdçiçəyi, ələyəz, Cənubi Qafqaz canavargiləsi kimi flora növlərinin, bəbir, safsar, bezoar keçisi, Cənubi Qafqaz muflonu, daşlıq dələsi, oxlu kirpi, Aralıq dənizi tısbağası, saqqallı qartal, Alp torağayı, qonur ayı, vaşaq kimi fauna növlərinin, həmçinin Oğlanqala, Qazma mağarası, Havuş piri, Axura nekropolu, Qaradaş ocağı, Qarasu qalası və sair kimi tarixi mədəniyyət, arxeoloji və memarlıq abidələrinin qorunub saxlanılması məqsədilə çox işlər görülüb. Ümumiyyətlə, "Arpaçay" Dövlət Təbiət Yasaqlığının yaradılması muxtar respublikamızda ekoloji tarazlığın, təbiətin qorunmasına xüsusi önəm verildiyini bir daha təsdiqləyir.

Bura elə bir füsunkar təbiətə malikdir ki, kilometrlərlə məsafə qət etsən də, zamanın necə keçdiyini, yorğunluq belə, hiss etmirsən. Elşən Seyidovla birlikdə bu sirli-sehrli təbiət aləmindən ayrılıb yasaqlığın inzibati binasına üz tuturuq. Qeyd edək ki, bina Aşağı Yaycı kəndində yerləşir.

Elşad müəllim bina ilə tanışlıq zamanı qeyd edir ki, idarənin işçiləri mütəmadi olaraq yasaqlığın müxtəlif yerlərində olur, ərazini yüksək səviyyədə mühafizə edirlər. Eyni zamanda bir vaxtlar məhv edilmiş meşə zolaqlarının və yaşıllıqların bərpası istiqamətində də əməli işlər həyata keçirilir. Əhali arasında ekoloji maarifləndirmə işlərini həmişə diqqət mərkəzində saxlayır, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları ilə birgə qəsəbə və kəndlərdə olur, geniş söhbətlər aparır, ətraf mühitin mühafizəsi ilə bağlı məlumatlar verir, dövlətimizin ekoloji vəziyyətin yaxşılaşdırılması sahəsində apardığı siyasət, eləcə də muxtar respublikamızın başlıca ekoloji problemləri və bu istiqamətdə həyata keçirilən tədbirləri əhalinin diqqətinə çatdırırıq.

Bununla yanaşı, qəzetinizdə dərc olunan xəbərlərdən də məlumdur ki, ölkədə gənc nəslin ekoloji təhsilinin yüksəldilməsi və maarifləndirilməsi məqsədilə tərtib olunmuş tədbirlər planına əsasən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşları ilə birgə ümumi təhsil müəssisələrində mütəmadi olaraq seminar və məşğələlər keçirir, elmi-praktik konfranslar təşkil edirik. Ötən dövrdə "Arpaçay" Dövlət Təbiət Yasaqlığı haqqında ümumi məlumatları özündə əks etdirən buklet və broşürlər hazırlanıb əhali arasında yayılıb.

Direktor qeyd etdi ki, yasaqlığın əməkdaşlarının qarşısına qoyulan ən vacib vəzifələrdən biri də bu ərazidəki heyvanat aləminin həyatının təmin edilməsidir. Tədbirlər planına uyğun olaraq, xüsusilə soyuq qış aylarında Naxçıvanın gözəlliklər məskəni olan "Arpaçay" Dövlət Təbiət Yasaqlığının ərazisində heyvanat aləminin kompleks məskunlaşdığı ərazilərdə, yeni salınmış yaşıllıq zolaqlarında və digər ehtiyac duyulan təbiət ərazilərində biotexniki tədbirlər həyata keçirilir.

"Arpaçay" Dövlət Təbiət Yasaqlığının timsalında bir daha əmin oluruq ki, təbiət bizim üçün həyatın özü qədər doğmadır, əzizdir, həyat, varlıq onun üzərində qurulub. Deyirlər, yer üzünün əşrəfi sayılan insanı da təbiət yaradıb və öz sərvətlərini də onun istifadəsinə verib. Bəlkə, elə ona görə də neçə min ildən artıqdır ki, insanla təbiət arasındakı münasibət müəyyən nisbətdə davam edir. Bəşəriyyət öz inkişafının yüksək pilləsinə ayaq qoyduqca bu nisbət müəyyən mənada insanların xeyrinə dəyişir. Başqa sözlə desək, insan təbiəti korlayır, zərər verir, əvəzində isə ona heç nə qaytarmır. Lakin düşünmür ki, bu gün ağızşirinliyi ilə bu dünyada ömür sürürüksə, məhz ana təbiətə borcluyuq. Atalar sözüdür: "Tək əldən səs çıxmaz". Əlbəttə, təbiətin bizə bəxş etdiyi bu qədər sərvəti təkbaşına necə qoruya bilərik? Amma bir məsəl də var, deyərlər ki, bir nəfər meydan döyüşçüsüdür. Yəni o kəsin ki qəlbində təbiət sevgisi var, ağaca, budağa, gülə, çiçəyə, çölə çəmənə, mamıra, bulağa, dağa, daşa, ormana biganə deyil, deməli təbiətimizin sabahından arxayın ola bilərik.

Dövlətimiz təbiətimizin zənginliklərinin qorunub yaşadılması istiqamətində ardıcıl tədbirlər görür, nadir nümunələrin xüsusi mühafizəsini təmin edir. Bu işdə hər birimiz öncül nümunə göstərib təbiətimizi qorumalıyıq. Ova qadağalara əməl edib, yaşıl örtüyün artırılmasına öz töhfəmizi versək, gələcək nəsillərə zəngin və sağlam həyat bəxş etmiş olarıq. Ömrümüz boyunca hərəyə, sadəcə, bir ağac əksək, yüz minlərlə oksigen mənbəyi yaratmış olarıq. Yasaqlıqlar isə, sadəcə, təbiətin seyrinə çıxıb, gözəlliklərdən zövq almaq üçün nadir təbiət guşələridir. Yolunuz düşərsə, giriş icazəsi alıb bu füsunkar məkanın seyrinə çıxın. O zaman nə üçün buraların xüsusi həssaslıqla mühafizə olunduğunun daha çox fərqində olarsınız.

**Gülcamal TAHİROVA**

## Onlayn respublika elmi konfransı keçirilib



*Naxçıvan Dövlət Universitetində "Ekoloji tarazlığın qorunub saxlanılmasına müasir baxış : problemlər, faktlar, təkliflər" mövzusunda onlayn respublika elmi konfransı keçirilib.*

Tədbirdə giriş sözü ilə çıxış edən universitetin rektoru Elbrus İsayev ölkəmizdə təbii ehtiyatlardan səmərəli istifadə və ekoloji tarazlığın qorunması istiqamətində görülən işlərdən danışıb. Qeyd olunub ki, muxtar respublika ərazisində də ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam mühitdə yaşamasının təmin edilməsi məqsədilə uğurlu sosial-ekoloji siyasət həyata keçirilir. Rektor universitetdə Ekologiya mühəndisliyi, Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi ixtisasları üzrə bakalavr, magistr, doktorant hazırlığının həyata keçirilməsindən danışıb. Diqqətə çatdırılıb ki, ali təhsil ocağında yaradılan müasir tədris şəraiti gələcək təcrübələrin, tədqiqatların aparılması üçün mühüm elmi-təcrübi əhəmiyyətə malikdir.

AMEA Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədov "Azərbaycanın su ehtiyatlarının və iqlim dəyişmələrinin dayanıqlı inkişafa təsiri"adlı çıxışında bildirib ki, ölkəmizdə su ehtiyatlarının azalmasının iqlim dəyişmələrinə təsirini aradan qaldırmaq üçün bir sıra tədbirlər müəyyənləşdirilib. Akademik vurğulayıb ki, su ehtiyatının tükənməsinə yol verilməməsi üçün çaylar mühafizə edilməli, onların ekoloji axını bərpa edilməli, yaşıl texnologiyaların, eyni zamanda suya qənaətedici texnologiyaların geniş tətbiqinə üstünlük verilməli, sudan qənaətlə, lazım gəldikdə təkrar istifadə olunmalıdır.

AMEA-nın müxbir üzvü, Torpaq və Aqrokimya İnstitutunun direktoru, aqrar elmlər üzrə elmlər doktoru, professor Əlövsət Quliyev "Naxçıvan Muxtar Respublikasında torpaq ehtiyatlarından istifadə zamanı suvarma və su problemləri" mövzusundakı çıxışında qeyd edib ki, muxtar respublikada suvarma problemləri bir çox üsulla həll edilir, insanlar qapalı suvarma şəbəkəsi, subartezian quyuları və kəhrizlərdən yararlanırlar. Sudan səmərəli istifadə olunması, torpaqların münbitliyinin qorunması, şoranlaşma və eroziyaya qarşı mübarizə aparılması, relyefi müxtəlif olan ərazilərdə düzgün suvarma tədbirlərinin icra edilməsi məqsədilə 2007-ci ildən damcı üsulu ilə suvarma sisteminə üstünlük verilir. Müsbət haldır ki, son dövrlər muxtar respublikada xeyli bərpa işləri aparılıb, yeni-yeni meyvə bağları və meşəparklar yaradılıb. Nəticədə, Naxçıvan şəhəri MDB ölkələri içərisində təmiz şəhərlər siyahısına düşüb.

Onlayn konfransda Coğrafiya kafedrasının müdiri, coğrafiya üzrə fəlsəfə doktoru, dosent Əli Həsənovun, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf mühit və təbii sərvətlərdən istifadənin dövlət nəzarəti şöbəsinin müdiri Azər Məmmədovun da çıxışları dinlənilib.

**Səadət ƏLİYEVA**

### İtmişdir

Şərur rayonunun Çəmənli kəndində yaşamış Həsənova Leyla Məmmədəli qızının adına verilmiş JN-182 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 481